

Gürcüstan prezidenti Mixeil Saakaşvili dövlət başçısı İlham Əliyevə zəng edib.

Bu barədə Azərbaycan Prezidentinin mətbuat xidmətindən məlumat verilib. Məlumatda bildirilir ki, M. Saakaşvili prezident seçkilərində əldə etdiyi inamlı qələbə münasibəti ilə dövlət başçısını təbrik edib, xalqımızın rifahı və dövlətimizin gələcək inkişafı naminə ona ali dövlətçilik fəaliyyətində uğurlar arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə Gürcüstan prezidentinə minnətdarlığını bildirib.

Prezidentlər ölkələrimiz arasında dostluq münasibətlərinin uğurlu inkişafından məmnunluq ifadə edib, əlaqələrimizin bundan sonra daha da möhkəmlənəcəyinə əmin olduqlarını bildiriblər.